

MƏHƏMMƏD ƏLİ

## DANIŞIR

Üzü dönüb zəmanənin, a qardaş,
Əyyaşa bax, məhəbbətdən danışır.
Gündə satır dostlarını, yox arı,
Kəlməbaşı sədaqətdən danışır.

Ürəyində yer ayırıb şeytana,
Əməlləri oxşamayır insana.
Nə ad verək bu cahilə, nadana,
Haqq-həqiqət, ədalətdən danışır.

Bilinməyir peşəsi nə, işi nə,
Danışdığı cəfəngiyyat, əfsanə.
Çəkinməyib əməlindən o, yenə
Böyük-böyük siyasətdən danışır.

Seçəmməyir sözü-sözdən bu nadan,
Donos yazır Füzulidən, Vurğundan.
Sorur kimdir bu Vahidi-qəzəlxan,
Utanmayıb şer-sənətdən danışır.

Daşa dönüb köksündəki ürəyi,
Tapdalayır qızılgülü, çiçəyi.
Dizi üstə imiş onun çörəyi,
Qara yaxıb Məhəmməddən danışır.

## MƏNİ

Gəldim görüşünə yenə dağların,
Coşub salamladı bulaqlar məni.
Keçdim dərələrdən, orman içindən,
Əsib salamladı yarpaqlar məni.

Hər yamacdan, yaldan gül yığa-yığa,
Dolanıb bərəni qalxdım yaylağa.
Qayalar bürünmüş duman - duvağa,
Çağırdı qoynuna oylaqlar məni.

Al xalı sərilib irizə, yola,
Lalə əldə tutub şehdən piyalə.
Dağlara səs salıb coşan şəlalə,
Sanki haraylayıb soraqlar məni.

Qalxdım zirvələrə, qalxdım, ucaldım,
Zirvədə elə bil, bir qara xaldım.
Birdən yorulsam mən, demə qocaldım,
Qoymaz qocalmağa bu dağlar məni.

Məhəmməd Əliyəm, dağlardı yurdum,
Dərələr səngərim, qayalar ordum.
Dağlar səcdəgahım, əzəli andım,
Bu inam yaşadar, yaşadar məni.

## ÜMİD AZALIB SABAHA

Dirilərimiz canlı ölü,
ölülər ölmür, baba, ölmür.
Bu necə sirdir, bəlkə Tanrı
özü də bilmir, baba, bilmir.

Göy yerə möhtac, yer də göyə,
Qalmışıq gözü döyə-döyə.
Tanrı unudub bizi. Niyə
köməyə gəlmir, baba, gəlmir.

Bəxti qaradır gələn yazın,
(bu bir tarixdir, bunu yazın).
Vətən həsrətli köçkün qızın,
üzü bir gülmür, baba, gülmür.

Cahan bürünüb nalə-aha,
Ümid azalıb al sabaha.
Şair ürəyim dözmür daha,
Yazmasam olmur, baba, olmur,
Yazmasam olmur, baba, olmur.

*05.12.2008*

# VƏTƏN

Nə qədər ki, bilmirik
qədrini, qiymətini,
gizlət qoynundakı
varını, sərvətini.
Ac qurd kimi ulaya-ulaya
yad elləri dolaşaq.
Qoynunda yer vermə bizə,
torpağına qovuşaq.
Bulaqların çağlamasın, axmasın,
suyundan içə bilməyək.
Ayağımızın altında şimşək çaxsın,
bizi yandırıb yaxsın,
yollarından keçə bilməyək.
Yuxumuz çəkilsin ərşə,
rahatlığımızı yox elə,
sancılmaq üçün ürəyimizə,
gülünü, çiçəyini, otunu az elə.
Dar, soyuq zindan kimi
isti, gen qucağını dar elə,
suyunu, çörəyini, duzunu haram,
şən günümüzü xar elə.
Biz ki, duyammırıq, görəmmirik,
sənin gözəlliyini, yaraşığını,
kor olsun gözümüz,
al gözümüzün nurunu, işığını.
Səni ki, qorumağa çatmadı gücümüz, qüvvətimiz,
demirəm, Vətən, bağışla bizi.
Nə qədər ki, yatır, oyanmır qeyrətimiz,
götür bir qara daş, daşla bizi,
götür bir qara daş, daşla bizi.

***02.12.2008***

# TƏZƏDƏN BİR DƏ ÖLÜMMÜ?

Acmışam, yeməyə bir şey yox,
arzularımı yeyimmi?
Üşüyürəm, soyuqdan içim əsir,
kədərimi əynimə geyimmi?
Ümidlərim ölüb,
onlara layla deyimmi?
Əzrayıl durub başımın üstündə,
gəlişinə gülümmü?
Ölü onun nəyinə gərək?
Təzədən bir də ölümmü?
Təzədən bir də ölümmü?

***18.12.2009***

# BELƏLƏRİ DƏ VAR

Dildə Allah kəlamı,
Qəlbində şeytan gəzir.
Şərləməkçün adamı,
Axtarıb böhtan gəzir.

Üzdə sanki mələkdir,
(Bu da bir görəcəkdir!)
Qurd səpən kəpənəkdir,
Bağı-gülüstan gəzir.

Düz gəlmir işi-sözü,
Şorgözdür, acdır gözü.
Salıb toruna yüzün,
Kəsməyə qurban gəzir.

Bilinmir heç nə zaddır,
Dostmudur, yoxsa yaddır.
Pusqudakı ac qurddur,
Fürsəti-zaman gəzir.

Düşmür beləsi ələ,
Axtarsan da yüz ilə.
Zəhəri, kərtənkələ,
Verməyə ilan gəzir.

Boyu boydur, başı baş,
Görsən qalarsan çaş-baş.
Gəzəndə, sanki, qardaş,
İgid-pəhləvan gəzir.

Dildə Allah kəlamı,
Qəlbində şeytan gəzir.
Şərləməkçün adamı,
Axtarıb böhtan gəzir.

***22.10.2008***

# BAŞQA YOL SEÇƏMMƏDİM

Dağı aşmaq istədim,
təpəni keçənmədim.
Çağlayan bulaq gördüm,
suyundan içənmədim.

Atı dördnala səkdim,
boşuna cəfa çəkdim,
yer belləyib, dən əkdim,
zəmisin biçəmmədim.

Belə yazılıb qədər,
qismətimdir dərd, kədər.
Çalışsam da nə qədər,
başqa yol seçəmmədim.

***09.04.2013***

# ÜMİD İŞIĞI SÖNÜB

Ümidlərimi
payızda xəzan vurmuş
yarpaqlartək
zaman
bir-bir çırpır daşlara.
Qəlbimdə
ümid işığı sönüb,
cahan gözümdə bir rəngdədir: -
qara.

***26.09.2010***

# MÖCÜZƏ

Möcüzəyə bax, möcüzəyə;
zibillikdə
bir topa çiçək bitmiş,
çiçəklər ləçəkləri ilə
onların üstünü örtmüş.
Zibillik olmuş
cənnətin bir guşəsi,
heyran etdi
buranı görən hər kəsi.
Qüdrətinə şükür, Yaradan.

***21.08.2011***

# YALAN DEYİL

Dünyada qalsam mən,
dünya dolan deyil.
Dünyadan getsəm mən,
dünya boşalan deyil.
Bu bir həqiqətdir,
vallah, yalan deyil.

***30.09.2011***

# ƏDALƏT ÖLƏCƏK

Günah işlətsəm,
yerim cəhənnəm olacaq,
ruhum
cəhənnəm odunda yanacaq.
Cənnəti, cəhənnəmi
Tanrı yaradıb,
hamı cənnətə getsə,
cəhənnəm boş qalacaq.
Ədalət ölür
bu zaman ancaq.

***30.09.2011***

# İKİLİ STANDART

Bir haram buğda dənini
yeyən Həvva
Tanrı qəzəbinə gəlmiş tuş,
cəzalandırılaraq
cənnətdən qovulmuş.
Yediyi haram,
içdiyi haram,
geydiyi haram,
hər nəyi varsa,
hamısı haram
olanlar bürüyüb cəmiyyəti,
nədənsə Tanrı susur
görüb bu həqiqəti.

***02.10.2011***

# SATQINLIQ QORXUSU

Qazımızı satırıq,
neftimizi satırıq,
yeraltı, yerüstü
sərvətimizi satırıq.
Sata-sata
olub öyrəncək,
qorxuram axırda
satqına dönək.

***24.01.2013***

# RÜBAİ

Sünbül ağırlaşırsa, sünbüldə dən var,
Duman qaralıbdırsa, dumanda çən var.
İçimə daş vurdum ki, görüm mən kiməm,
Gördüm məndən irəli sirli bir mən var.

***20.05.2010***